Ədəbiyyat qəzeti

6 26 iyun 2021-ci il

# Elxan Zal QARAXANLI - 60



Hörmətli Elxan Zal Qaraxanlı!

Sizi, tanınmış şair, publisist və tərcüməçini 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1961-ci ildə Tovuz şəhərində anadan olmusunuz. Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra bir müddət Belarusda və Tovuzda mühəndis olaraq çalışmısınız. 1988-ci ildə fəaliyyətə başlayan "Ana dili Birliyi" təşkilatının qurucularından olmuş, 1989-1992-ci illərdə "Türkün səsi" adlı qəzet nəşr etdirmiş, 1992-1993-cü illərdə Tovuz rayon İH-də çalışmısınız. 1996-1998-ci illərdə "Günün səsi" və "Ekonomiks" qəzetlərinin baş redaktoru kimi fəaliyyət göstərmisiniz. 1999-cu ildə Türk Törə Ocağı, 2005-ci ildə Xalq yazıçısı Anarla birgə "Mahmud Kaşqarlı adına beynəlxalq Fond" adlı təşkilatların qurucusu olmusunuz. Hazırda AYB-nin Bədii tərcümə və Ədəbi əlaqələr Mərkəzinin "Ulu Çinar" jurnalının baş redaktorusunuz.

Siz Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" (2013), Qazaxıstan YB-nin "Beynəlxalq Alaş mükafatı" (2017), "Beynəlxalq Mahmud Kaşqarlı mükafatı", "Vaqif Səmədoğlu mükafatı", "Əli bəy Hüseynzadə mükafatı" laureatı, "Türk Ədəbiyyat Vakfı"nın şərəf üyesisiniz.

Bədii yaradıcılığa erkən yaşlarınızdan başlamısınız. "Qurdlar ulayan gecə", "Savaş ayələri", "Yaquar yerişli vaxt", "Türk əsrinin türküləri" və sair adlı şeir kitablarınız oxucular tərəfindən maraqla qarşılanıb. Şeir və poemalarınız polyak, rus, ingilis dillərində işıq üzü görüb.

Siz həm də tərcüməçi və naşir kimi tanınırsınız. Bu sıradan Oljas Süleymenovun, Ataol Bəhramoğlunun, Nursultan Nazarbayevin, Kazıybek Shakhanın, Sabit Dosanovun, Abay Kunanbayevin və b. kitabları nəşr olunub. Eyni zamanda "Soyqırım. Erməni terrorizmi" (2010), "Qazan xanlığı" (2015) kitablarının da redaktoru və naşirisiniz.

Hörmətli Elxan Zal Qaraxanlı!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq.

Azərbaycan Yazıçılar Birliyi